# Musiqi və elm sahəsində Azərbaycanı dünyada tanıdan Aleksandriya Sultan-zadə fon Brusseldorfun qeyri-adi tədqiqatı

## O, dünyada səs elmləri sahəsində ilk elmi araşdırma aparır

Əfqan Qafarlı

**(əvvəli ötən sayımızda)**

***Hazırda tədqiqatlar nəticəsində əldə edilmiş məlumatlar Aleksandriya Sultan-zadə fon Brüsseldorf tərəfindən təhlil edilir və araşdırılır.***

***Aleksandriya xanımın azərbaycanlı xanəndələrin səs imkanları, boğaz quruluşları ilə bağlı apardığı bu elmi tədqiqat xarici mütəxəssislərin də diqqətindədir, hamı maraqla bu işin nəticəsini gözləyir.***

***Yeri gəlmişkən, sözügedən elmi tərqiqat işi əsnasında Aleksandriya Sultan-zadə fon Brüsseldorf daha bir mütərəqqi təkliflə çıxış edib. Belə ki, o, Azərbaycan Milli Konservatoriyasının nəzdində ilk dəfə ictimai əsaslarla 'Səsin Tədqiqi Elmi Laboratoriyası'nın yaradılması təşəbbüsünü irəli sürüb. Və bu laboratoriyanın yaradılması 2022-ci ildə Milli Konservatoriyada xüsusi təşkil edilmiş şurada müzakirə edilərək təsdiqlənib.***









Onun musiqi sahəsindəki digər təşəbbüslərini də qeyd etmək yerinə düşər. Bir neçə ildir ki, məhz Aleksandriya xanımın təklifi ilə Ümumdünya Səs Gününə həsr olunmuş elmi-praktiki seminarlar keçirilir. Özü də bütün bu tədbirlərə qatılaraq, elmi işi çərçivəsində muğam ifaçılarının boğaz quruluşu, səs telləri, boğaz qulışunun əzələləri, səslərinin fizioloji və akustik parametrləri barəsində çıxışlar edir.

Aleksandriya xanımın vətənə qayıdış məqsədlərindən biri də ulu babası, Azərbaycanın birinci peşəkar qarmon ifaçısı və muğam virtuozu, qarmonu azərbaycanlaşdıran və milliləşdirən Əhəd Əliyevin – Kor Əhədin adının əbədiləşdirilməsi olub. O, artıq bu istiqamətdə kifayət qədər işlər həyata keçirib. Belə ki, Əhəd Əliyevin həyat və yaradıcılığına aid televerilişlər hazırlanmış, tədbirlər reallaşmış, elmi məqalələr dərc olunmuş, konfranslarda barəsində danışılmış, filmlər nümayiş olunmuşdur. Bundan başqa, Beynəlxalq Muğam Mərkəzinin dəstəyi ilə ərsəyə gəlmiş, müəllifi Aleksandriya Sultan-zadə fon Brusseldorf və həmmüəllifi Gülhüseyn Kazımlı olan, akademik Nizami Cəfərovun redaktoruluğu ilə "Qarmonun Əfsanəsi" adlı kitab çap edilərək işıq üzü görmüşdür. Məhz onun sayəsində Kor Əhədin kim olduğu artıq hamıya məlumdur.

Aleksandriya Sultan-zadə fon Brüsseldorf hazırda peşəkar musiqi təşkilatlarının, o cümlədən UNESCO yanında Beynəlxalq ənənəvi musiqi şurasının (ICTM), Beynəlxalq Musiqi Təhsili Cəmiyyətinin (International Society for Music Education – ISME) və ABŞ-da yerləşən nüfuzlu Beynəlxalq Səs Fondu "The Voice Foundation-"adlı təşkilatın üzvüdür.





***Qəlbi yaradıcılıq eşqi ilə döyünən, bütün varlığı ilə sənətə bağlı olan Aleksandriya Sultan-zadə fon Brüsseldorf Azərbaycana qayıdandan sonra elmi fəaliyyətilə əlaqədar bir çox beynəlxalq konfranslarda və tədbirlərdə çıxış edib.Bundan başqa, o, Londonda yerləşən Qoldsmits Universitetində Təhsil, Musiqi və Psixoloji Tədqiqat Cəmiyyətinin (SEMPRE) təşəbbüsü ilə keçirilmiş "Sistemli Musiqişünaslıq (SysMus 14)" adlı konfransında, Tükiyənin Kadir Has Universitenin Konqres Mərkəzində keçirilmiş "İSME Legacy İstanbul 2019" adlı beynəlxalq konfransda, 2022-ci ildə Tükiyənin İstanbul şəhərində keçirilmiş "VoiceIstanbul 2022" konfransında, UNESCO-nun musiqi şəhəri Kırşəhər beynəlxalq musiqi konfransında mükafatlandırılıb...***

O, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyevanın mədəniyyətin və muğamın qorunmasında gördüyü irimiqyaslı işlərdən ilham aldığını deyir.

Qəlbi yaradıcılıq eşqi ilə döyünən, bütün varlığı ilə sənətə bağlı olan Aleksandriya Sultanzadə fon Brüsseldorf Azərbaycana qayıdandan sonra elmi fəaliyyətilə əlaqədar bir çox beynəlxalq konfranslarda və tədbirlərdə çıxış edib.Bundan başqa, o, Londonda yerləşən Qoldsmits Universitetində Təhsil, Musiqi və Psixoloji Tədqiqat Cəmiyyətinin (SEMPRE) təşəbbüsü ilə keçirilmiş "Sistemli Musiqişünaslıq (SysMus 14)" adlı konfransında, Tükiyənin Kadir Has Universitenin Konqres Mərkəzində keçirilmiş "İSME Legacy İstanbul 2019" adlı beynəlxalq konfransda, 2022-ci ildə Tükiyənin İstanbul şəhərində keçirilmiş "VoiceIstanbul 2022" konfransında, UNESCO-nun musiqi şəhəri Kırşəhər beynəlxalq musiqi konfransında mükafatlandırılıb.

Yaxın zamanlarda Portuqaliyanın Lissabon şəhərində keçirilməsi nəzərdə tutulan UNESCO yanında Beynəlxalq ənənəvi musiqi şurasının (ICTM) və Avstraliyanın Brizben şəhərində keçirilməsi planlaşdırılan Beynəlxalq Musiqi Təhsili Cəmiyyətinin (International Society for Music Education – ISME) konfranslarında iştirak etməsi üçün dəvət almış Aleksandriya xanım hazırda həmin tədbirlərdə öz elmi işini təqdim etmək üçün bütün istedadı ilə hazırlaşır.



***Amerika, Kanada, Böyük Britaniya, Avstriya, Almaniya, İtaliya, Türkiyə, Avstraliya, Portuqalya, İspaniya və digər ölkələrdə mədəniyyətimizi, musiqi sənətimizi tanıdan Amerika və Azərbaycan opera ifaçısı, vokal səs üzrə elmi tədqiqatçı, Aleksandriya Sultan-zadə fon Brüsseldorf əsl azərbaycanlı kimi doğma vətəni layiqincə təmsil edir... O, vətənlə, doğulub boya-başa çatdığı Bakı ilə nəfəs aldığını, doğma musiqimizin vətəndan uzaqlarda ləyaqətli təmsilçisi olmağa çalışdığını vurğulayır. Bu işdə ona daha böyük uğurlar arzulayırıq...***